


# Türk xalqları filmlərinin Bakı paradı



**Xəbər verdiyimiz kimi, oktyabrın 8-də Bakıda "Şuşa - Türk Dünyasının Mədəniyyət Paytaxtı 2023" ili çərçivəsində "Qorqud Ata" III Türk Dünyası Film Festivalı başlanıb. Festival Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Heydər Əliyev Mərkəzi, TÜRKSOY, Azərbaycan Respublikası Kino Agentliyi və Bakı Media Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilir.**

Dörd gün davam edəcək festivalın açılış mərasimindən öncə Türk dünyasının birliyini əks etdirən videoçarx nümayiş etdirilib. Sonra tədbirdə çıxış edən mədəniyyət nazirinin müavini Fərid Cəfərov festivalın məqsədinin türk xalqları arasında mədəni əməkdaşlığı inkişaf etdirmək olduğunu bildirib.

Tədbirdə digər çıxış edənlər - Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY) Baş katibinin müavini Sait Yusuf, "Qorqud Ata" Film Festivalının direktoru, kino tənqidçisi İhsan Kabil, Azərbaycan Dövlət Film Fondunun direktoru, Əməkdar incəsənət xadimi Cəmil Quliyev türk xalqları arasında müxtəlif sahələrdə, o cümlədən mədəniyyət sahəsində əlaqələr, Azərbaycanın zəngin mədəni irsi, kino ənənələri barədə məlumat veriblər. Qeyd olunub ki, bu film festivalı bütün Türk dünyasını bir araya gətirən mühüm mədəniyyət layihəsidir.

***Festival iştirakçılarından alınan qısa müsahibələri təqdim edirik:***

**Orxan Fikrətoğlu, Mədəniyyət nazirinin müşaviri, Əməkdar incəsənət xadimi:**

– Türk dünyası hər bir sahədə olduğu kimi, kino sahəsində də birləşir və bu, çox müsbət cəhətdir. Əvvəlki festivallar İstanbul və Bursada olub, indi isə kino xadimləri Bakıda toplaşıblar. İştirakçıların Şuşa şəhərinə tanışlıq səfəri və Bakıda zirvə toplantısının keçirilməsi də nəzərdə tutulur.

**Sabir Məmmədov, Azərbaycanın Xalq artisti:**

– Bakıda belə festivallar tez-tez keçirilsə, yaxşı olar. Bu cür möhtəşəm tədbirlər Azərbaycan kinosunun tanıdılması baxımından önəmlidir.

**Suğra Bağırzadə, Əməkdar artist:**

– Festival bütün Türk dünyasının birləşməsi deməkdir. Biz bir-birimizi daha yaxşı anlayırıq, bu baxımdan festival dünya miqyasında tanınmaq üçün ilkin fürsətdir.

Festivala Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan, Qırğızıstan və Türkmənistanla yanaşı, Qaqauz Yeri (Moldova), Tatarıstan, Altay və Başqırdıstandan (Rusiya Federasiyası), həmçinin azsaylı türk xalqlarından təqdim olunan 32 bədii, sənədli və animasiya filminin Nizami Kino Mərkəzində nümayişi baş tutacaq.

***XQ***

Xalq qəzeti.- 2023.- 10 oktyabr, № 220.- S.10.